DOI:10.30546/gdu.3.2024

**UOT:94.**

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN XARAKTERİ (1946-1960-cı illər)

***dosent Hüseyn Bəxtiyarlı***
***Gəncə Dövlət Universiteti***
***huseyn.bextiyarli75@bk.ru***

**Xülasə:** *Məqalədə qeyd edilən illərdə beynəlxalq münasibətlərin xarakteri məsələsi araşdırılır. Göstərilir ki, beynəlxalq ziddiyyətlər hələ də gərgin olaraq qalırdı. Dünya faktiki olaraq iki sistemə bölünmüşdü. Müxtəlif bloklar yaranmış və qarşıdurma güclənmişdi. Kapitalizm və sosializm sistemlərinin hökmranlıq uğrunda mübarizəsi başlanmışdı. Qərb ölkələri sürətlə silahanmaya keçmişdi. Sovet İttifaqı heç də bundan geri qalmırdı. Elmi mübarizə yeni müstəviyə daxil olmuşdu.Hər iki tərəf elmin inkişafına böyük kapital ayırırdı. Bunun nəticəsində yüksək elmi nailiyyətlər əldə edilirdi*

**Açar sözlər:** dünya, siyasət, müharibə, iqtisadi, beynəlxalq
**Ключевые слово**: мир, политика, война, экономическое, международная
**Key words:** world, politics, war, economic, international

Müharibənin başa çatmasından dərhal sonra dünyanın siyasi xəritəsində ciddi dəyişikliklər yarandı.İmperializmin müstəmləkə sistemi dağıldı ki,bununla müstəqil dövlətlər meydana gəldi.Beynəlxalq məsələlərdə iki istiqamət formalaşdı. Bir tərəfdən ABŞ-ın başçılıq etdiyi müttəfiq dövlətlər,digər tərəfdən isə SSRİ və onu diqtəsi ilə yaradılan dövlətlər qrupu.Ümumiyyətlə, iki sistem arasında qarşıdurma etimatsızlıq şəraitində hökm sürürdü.Belə şəraitə Paris sülh konfransının qərarları qismən də olsa son qoydu.

1946-cı il martın 5-də Britaniyanın Baş Naziri U. Çerçillin Missuri ştatının Fulton şəhərində yerləşən Vestminster Kollecində nitqi yeni konfliktlərin əsasını qoydu.Soyuq müharibənin Avropada ilk böhranı 1948-ci ilin iyununda Berlin mə-sələsi ilə əlaqədar oldu.

1947-ci il martın 12-də Trumenin konqresə müraciət etdi.Konqres prezidentin təklifini qəbul edərək Yunanıstan və Türkiyəyə yardım edilməsinin zəruriliyini bildirdi. Beləliklə, hər iki dövlət ABŞ tərəfindən 400 mln dollar məbləğində yardım ayırdı. Qeyd etdiklərimizə dair məsələlər internet resursunda öz əksini tapmışdır (6).

Müharibənin səfalətini yaşamış Avropa çox ağır bir qışdan çıxmışdı. Avropa ölkələrində dönərli valyutaya satıla bilən mallar yox dərəcəsində idi, əlavə olaraq bu ölkələrin çoxundakı sosial-demokratik iqtidarlar liberal fikirli iqtisadçıların irəli sürdükləri ağrıverici bərpa tədbirlərini qəbul etmək niyyətində deyildilər. Əlbəttə, humanitar sahədə islahatlar həyata keçirməklə yanaşı, kommunizmin qərbə doğru yürüşünün qabağını alan əks addımlara ehtiyac duyulurdu.

Belə bir anda Birləşmiş Ştatlar Avropa dövlətlərinə 20 milyard dollarlıq yardım təklif etdi. Ancaq bir şərtlə ki, Avropa dövlətləri bu yardımdan istifadəni çevik, planlı, həm də müştərək şəkildə həyata keçirsinlər. Avropa dövlətləri ilk dəfə idi ki, bir-biri ilə sıx şəkildə əməkdaşlıq qurmaqla, vahid iqtisadi qurum kimi fəaliyyət göstərəcəkdilər. Marşall həm də Sovet İttifaqına, eləcə də onun Şərqi Avropadakı müttəfiqlərinə də yardım təklif etdi. Fəqət, Stalin bu proqramı bir fənd kimi qəbul edərək bu yardımdan boyun qaçırdı. Stalinin mənfi cavabı ola bilsin bu planın Konqresdə qəbul olunmağında həlledici əhəmiyyət daşıdı.

Qeyd etmək lazımdır ki, Marşall planı amerikan iqtisadiyyatına da xeyir gətirdi. Çünki Avropa dövlətlərinə yardım şəklində ayrılan pullar məhz Birləşmiş Ştatlarda istehsal olunan məhsulların alınmasına xərclənməliydi və həmin məhsullar amerikan ticarət gəmilərində Atlantik okeanın o tayından bu tayına daşınmalı idi. Bu plan həqiqətən öz işini gördü. Artıq

DOI:10.30546/gdu.3.2024

1953-cü ilə qədər Birləşmiş Ştatlar Avropa iqtisadiyyatına 13 milyard dollar köçürmüşdü, elə bununla da Avropa iqtisadiyyatı doğrudan da dirçəlmiş oldu. Bundan əlavə, həmin proqram Qərbi Almaniyanı da əhatə edirdi ki, ölkənin qərb hissəsi yenidən Avropa işbirliyinə qatılmış oldu. (Planda yalnız iqtisadi yardım nəzərdə tutulmuşdu. Koreya müharibəsi qurtarana qədər hərbi sahədə yardım göstərilmirdi). Bu kimi məsələlərə Enmio Di Holfo. The history of international relation.1918-1993.

Ekterinburq. 1998. Part 1-2.kitabında rast gəlmək olar (4).

Avropanın bərpasından əlavə Marşall planı başqa bir Şuman planını da həyata keçirməyə imkan qazandırdı. Şuman planının nəticəsində öncə "Avroatom", "Kömür və polad birliyi" sonradan isə "Ümumi bazar" yaranmış oldu. Beləliklə, Şuman planı Avropanı inkişaf etdirərək sonradan onun iqtisadi-siyasi cəhətdən tərəqqisinə və birliyinə zəmin yaratdı.

Stalin Qərblə iqtisadi inteqrasiyanın Şərq Blok ölkələrinin Sovet nəzarətindən qaçmasına imkan verəcəyinə inanırdı və ABŞ-nin Avropaya tərəf yönəlmiş birləşməsini satın almağa çalışırdı. Buna görə Stalin Şərq Bloku ölkələrinə Marşal Planı yardımı almağa mane oldu. Sovet İttifaqının Sovet subsidiyaları və mərkəzi və şərqi Avropa ilə ticarəti cəlb etdiyi Marşal Planına alternativ olaraq, Molotov Planı (daha sonra 1949-cu ilin yanvarında Qarşılıqlı İqtisadi Yardım Şurası olaraq təsis edildi) olaraq tanındı. Stalin yenidən qurulan Almaniyadan qorxurdu; Müharibədən sonrakı Almaniyaya dair fikri Sovet İttifaqı üçün hər hansı bir təhlükə yarada bilmək və ya yenidən qurmaq imkanını özündə ehtiva etməmişdir. 1948-ci ilin əvvəlində "mürtəce elementləri" gücləndirmək barədə aşağıdakı məlumatlar, Sovet əməliyyatçıları Sovetlərin demokratik quruluşları saxlamağa icazə verdiyi yeganə Şərq Bloku olan Çexoslovakiyada dövlət çevrilişi etdilər. Zərbənin ictimai vəhşiliyi, Qərbin güclərini bu anadək baş verən hər hansı bir hadisədən daha çox şoka saldı, müharibənin baş verəcəyinə dair qısa bir qorxu ilə hərəkət etdi və Birləşmiş Ştatlar Konqresindəki Marşall planına qarşı çıxan müxalifətin son vizitlərini süpürdü.

1948-ci il martın 17-də Brüsseldə Böyük Britaniya, Fransa, Belçika, Niderland və Lüksenburq arasında Qərb İttifaqı yaradıldı.Bundan sonra ABŞ-ın rəhbərliyi altında böyük hərbi blok yaratmaq üçün şərait formalaşdı.1949-cu il aprelin 4-də Belçika,İslandiya, Danimarka, Kanada, Lüksenburq, Niderland,Norveç,Portuqaliya, İtaliya, Böyük Britaniya, Fransa və ABŞ-ın Xarici İşlər Nazirləri Vaşinqtonda Şimali Atlantika Bloku təşkilatına dair sənədi imzaladılar.

Göstərilən faktlara Paul R Viotti, Mark V. Kauppi. International relations and World Politics.New- Jersy 2001. kitabnda toxunumudur (5).

1948-ci il aprelin 30-da Kolumbiyanın paytaxtı Boqatoda IX Amerika ölkələrarası konfrans iştirakçıları Amerika Dövlətləri Təşkilatının nizamnaməsi təsdiq etdilər və bu nizamnamə 1951-ci il dekabrın 13-də qüvvəyə mindi. Bu faktlara Всемирная история M.1997. kitabında yer verilmdir (2).

İkinci dünya müharibəsindən sonra Almaniyada faşizmin,SSRİ-də bolşevizvizmin təcrübəsindən ibrət dərsi alan sosial demokratlar real siyasətə keçdilər.Onlar marksizmdən uzaqlaşaraq hüququ dövlətin daimi qiymətliliyini tanımalı oldular.1951-ci ildə təşkil edilən və 42 sosialist və sosialistdemokrat partiyasını birləşdirən Sosialist İnternasionalının qəbul etdiyi Frankfurt bəyannaməsində demok- ratik sosializmin başlıca dəyərləri öz əksini tapmışdır.Bu bəyannamədə Avstriya Sosialist partiyasının 1958-ci ildə qəbul etdiyi proqramında və Almaniya sosial-demokrat partiyasının 1959-cu il Hodesberq proqramında irəli sürülən başlıca müddəalardan,məsələn,proletariat diktaruası,sinfi mübarizə,xüsusi mülkiyyət,isteh-tehsal vasitələrinin ictimailəşdirilməsi və s. müddəalardan imtina edilmişdi.80-ci illərin sonuna qədər sosialdemokratların bütün milli dəstələri bu yolu qəbul etdilər. İkinci dünya müharibəsindən sonra bir sıra səbəblər üzündən liberal partiyalar Qərbi Avropada arxa plana

DOI:10.30546/gdu.3.2024

keçsə də ABŞ-da demokratlar partiyası sosial islahatların başlıca aparıcısı rolunu qoruyub saxladı. Mühafizəkar sosial-siyasi qüvvələrin böyük bir hissəsi sosial islahatların zəruriliyini dərk etdilər. ABŞ-da ikinci dünya müharibəsindən sonra mühafizəkarlar hakimiyyətdə olduqları bütün dövrlərdə müəyyən dəyişikliklərlə sosial yardımı və dövlətin müdaxiləsi proqramını qoruyub sax- ladılar və bəzən onu inkişaf etdirdilər.

40-cı illərin sonundan 60-cı illərədək Qərbdə barışdırıcı mühafizəkarlar, Liberallar və sosial-demokratlar arasında dövlət müdaxiləsinin prinsipləri məsələsində özünəməxsus razılıq (konsensus) yarandı. Bütünlükdə bu dövrdə sosial islahatçılıq, keynsianizm prinsipləri dövlət müdaxiləsində ən yüksək xəyali nöqtəsinə çatdı.

Qərb ölkələrinin müharibədən sonrakı iqtisadiyyatının əlamətdar xüsusiyyətlərindən biri onun 50-60-cı illərdə coşğun inkişafı idi. Bu illərdə iqtisadiyyatın inkişafının illik orta artımı 1870-1950-ci illərə nisbətən Almaniya və İtaliyada 4 dəfə,Yaponiya və Fransada 2 dəfədən çox, Böyük Britaniyada, demək olar ki, iki-qat yüksəlmişdi. “Marşall planı”, beynəlxalq ticarətin inkişafı, dünya ticarətini li-berallaşdırmaq xəttinin götürülməsi Qərb ölkələrinin belə dinamik inkişafına təkan verən aimllərdən idi. Qərbi Avropada inteqrasiya başlandı. Nəticədə ixrac görünmə- miş dərəcədə artdı. Məsələn, AFR-də 1948-1960-cı illərdə ixracın illik artımı 16,2 % olmuşdu.Beləliklə, xarici siyasət iqtisadiyyatın inkişafı stimulu oldu. İqtisadi inkişaf illəri ucuz neft erası ilə eyni vaxta düşdü. Müharibədən sonra İran körfəzində dünyanın ən iri neft ehtiyatlarının intensiv istismarı başladı. Onun aşağı maya dəyəri, yüksək keyfiyyəti və hasilatın külli həcmi enerji təchizatı sahəsində yüngül situasiya yaratdı. Neft kömürü sıxışdırmağa, istehsal xərclərini azaldıb istehsalı daha çox stimullaşdırmağa başladı. Hər cür iqtisadi inkişafın mühüm şərti investisi-yalar, kapital yatırımıdır. Onların inkişaf sürəti bu dövrdə ən böyük əhəmiyyət kəsb etdi. Onların səviyyəsi 50-60-cı illərdə sənaye inkişafının öz xarakteri ilə də müəyyən olunurdu. Müharibə dövrünün bir çox elmi və texniki ixtiralarının tətbiqi əsasında sənayenin keyfiyyətcə yenidən qurulması, televizorlar, tranzistor qəbuledici- lərinin, yeni rabitə vasitələrinin, plastik kütlələrin və süni liflərin kütləvi hazırlan- ması başladı, reaktiv aviasiya və atom energetikası meydana çıxdı. “Soyuq mühari- bə” hərbi sənayenin inkişafını stimullaşdırdı. İqtisadi inkişafı təmin etmək Qərb öl-kələrinin siyasəti idi,onlar investisiyaları şirnikləndirərək,istehlak tələbatını sti-mullaşdıraraq ona fəal kömək edirdilər. Elm və texnikanın inkişafı İkinci dünya müharibəsindən sonra kənd təsərrüfatının da sürətli inkişafına səbəb oldu. Seleksiya və heyvandarlıq inkişaf etdi. Qarışıq iqtisadiyyat adlanan iqtisadiyyat qəti olaraq yaranmış oldu. Burada mülkiyyətin xüsusi kollektiv və dövlət formaları üzvi sürətdə birləşirdi. İqtisadiyyatın bütöv sahələrinin, məsələn, daş kömür və dəmir yol nəqliyyatı və digər ayrı-ayrı iri müəssisələrin milliləşdirilməsi hakimiyyətdə sosial islahatçıların və sosial demokratların olduğu şəraitdə iri dövlət bölməsinin yaranması ilə nəticələndi. Avropanın qabaqcıl ölkələrində o sənayenin 20-25 %-ni təşkil etdi. İqtisadi sahədəki müvəffəqiyyətlər firavanlıq dövlətinin mexanizminin və əsas institutlarının qəti olaraq formalaşması üçün şərait yaratdı. Bu sahədə mərkəzi yeri əhalinin varlı olmayan təbəqələrinə sosial yardım proqramı, iş yerlərinin təşkili, təhsil, səhiyyə və sosial təminat sisteminin müdafiəsi tuturdu. Əmək və kapital arasındakı münasibətlərə dövlətin müdaxiləsi başlıca əhəmiyyət kəsb edirdi.Dövlət orqanları mübahisəli məsələlərdə arbitraj rolunu oynayır, həmkarlar ittifaqları ilə sahibkarlar arasında kollektiv müqavilələr bağlanmasına nail olmağı öz vəzifələri hesab edirdilər. Dövlət, həmçinin, bütün vətəndaşlarının sosial ehtiyaclarını təmin etməyi öz öhdəsinə götürürdü. Dövlətin siyasəti əhalinin geniş təbəqələrinin həyat səviyyəsini təminatlı təbəqələrin həyat səviyyəsinə yaxınlaşdırmağa yönəldilmişdi. Burada əsas məqsəd həyatın bütün mühüm sahələrinə sosial xidmət təqdim etməklə sosial ədalətsizliyi azaltmaq idi. Bunlar uşaqlara qayğı göstərmək, pulsuz mək- təb təhsili, qocalığa görə təqaüd təminatı, işsizliyə və əmək

DOI:10.30546/gdu.3.2024

qabiliyyətini itirməyə görə müavinətdən ibarət idi. Bunun ən gözəl ifadəsini Danimarka, Norveç, İsveçdə öz reallığını tapan "Skandinaviya və ya İsveç sosializm modeli" ndə görmək olardı. Bu modelin əsas əlamətləri yüksək səmərəli iqtisadiyyatın təşkil edilməsi, bütün əmək qabiliyyətli əhalinin işlə təmin edilməsi, yoxsulluğun ləğvi, dünyada ən inkişaf etmiş sosial təminat sisteminin təşkili; savadlılıq və mədəniyyətin yüksək səviyyəsi idi. Yeni modeli bəzən "funksional sosializm" də adlandırırlar. Bu ondan irəli gəlirdi ki, belə demokratik dövlətlərdə milli gəlirin yenidən bölgüsü ən çox sosial ədaləti təmin etmək məqsədi daşıyan funksiyanı həyata keçirir. SSRİ və digər sosialist ölkələrinin nəzəriyyədə irəli sürdüyü prinsiplər əslində Qərbi Avropa və Şimali Amerikada daha səmərəli həyata keçirilmişdi. Bu ölkələrdə həyata keçirilən tədbirlər iqtisadi, sosial siyasi xarakterli problemlərin həllində mühüm rol oynadı. Məşğulluq, mənzil tikintisi, kənd təsərrüfatı qiymətlərinin müntəzəm aşağı salınması, işsizlərə yardım edilməsi, qocaların və əmək qabiliyyətini itirənlərin pensiya təminatı problemlərinin həll etmək üçün dövlətdən istifadə Qərbin inkişaf etmiş ölkələrinin hakim dairələrinə imkan verdi ki, sosial münaqişələrin kəskinliyini zəiflətsin. Bütün bunlarla bərabər, böhran kapitalist həyat tərzinin gündəliyində həmişə qalır. Bir çox ölkələrdə sosial münaqişələr özünü tətillər, münayişlər vasitəsilə büruzə verir. Onu da qeyd etmək lazımdır ki, İkinci dünya müharibəsindən sonrakı ilk onilliklərdə İtaliya, Fransa və bir sıra kapitalist ölkələrində kommunist partiyaları sosial və daxili siyasi inkişaf meylləri və prosesinə öz böyük təsirini göstərmişdi. Onların təsiri altında hakim dairələr XX əsrin 50-60-cı illərində bu ölkələrdə sosial qanunvericilik, milliləşmə, dövlətin nəzarətedici və tənzimləyici funksiyasının genişlənməsi haqqında qərarlar qəbul etmişdilər. Lakin, SSRİ-nin və dünya sosializm siseminin 80-90-cı illərdə dağılması nəticəsində kommunist partiyaları dünyanın inkişaf etmiş zonalarında ictimai-siyasi arenadan yoxa çıxmış oldu.

1955-ci il mayın 11-14-də Varşavada səkkiz sosialist dövlətinin müşavirəsi keçirildi.Müşavirənin sonunda imzalanan sənədlər 20 il müddətinə nəzərdə tutuldu. Müqavilə 1955-ci il iyunun 4-də qüvvəyə mindi. 1957-ci il yanvarın 5-də ABŞ prezidenti D. Eyzenhauer Yaxın və Orta Şərq ölkələrində Birləşmiş Ştatların siyasəti haqqında xüsusi məktubla konqresə müraciət etdi.Eyzenhauer dokturinası Yaxın və Orta Şərqdə yeni siyasi şərait yaratdı. Bununla regionda ABŞ-SSRİ qarşıdurması gücləndi.Qeyd edilnlr müəllif və digər kitablarda əks olunmuşdur (1;3).

XX əsrin ikinci yarısı üçün iqtisadi və siyasi əməkdaşlığın artması meyli səciyyəvi cəhətlərdən idi. O, hər şeydən əvvəl beynəlxalq dövlətlərarası və qeyri hökumət təşkilatlarının yaranmasında özünü göstərdi. Müharibədən sonrakı dövrdə onların sayı 2,5 minə yaxın idi. İkinci dünya müharibəsindən sonra BMT və NATO təşkil edildi. AİB, QİYŞ və Varşava Müqaviləsi Təşkilatı və s. yaradıldı.

İqtisadi Əməkdaşlıq və İqtisadi İnkişaf Təşkilatı (İƏİİT,1967) Amerika Dövlətləri

Təşkilatı (ADT,1948) , Neft İxrac edən ölkələr Təşkilatı (NİÖT, 1960), İslam Konfransı Təşkilatı (İKT, 1969), Cənub-Şərqi Asiya dövlətləri Assosiasiyası (ASEAN, 1967) və s. dövlətlər qrupu, ümumdünya və yerli təşkilatlar beynəlxalq münasibətlərdə çox mühüm rol oynayırlar. Bunlarla yanaşı müxtəlif ölkələrin siyasi partiya- larının da transmilli əməkdaşlığı geniş miqyas almaqdadır. 1961-cı ildə tərkibinə müxtəlif mərkəzçi partiyaların daxil olduğu Ümumdünya Xristian-Demokratik İttifaqının əsasının qoyulması buna misal ola bilər. Bu məsələlər dair məlumatar internet resursunda işıqlandırılmıdır (7).

Göründüyü kimi, müharibədən sonrakı dövrdə beynəlxalq münasibətlər ziddiyyətli xarakter daşımış və bu, blokların yaranması ilə daha da dərinləşmişdir.

DOI:10.30546/gdu.3.2024

**Ədəbiyyat**

1. Qasımlı M.Avropa və Amerika ölkələrinin müasir tarixi.1945- 2000. Bakı, 2003.
2.Всемирная история М.1997.
3.Международное право.М.1995.
4.Enmio Di Holfo.The history of international relation.1918-1993.Ekterinburq. 1998. Part 1-2.
5.Paul R Viotti, Mark V. Kauppi. International relations and World Politics.New- Jersy 2001.
6.www.google.az 40-50-ci illərdə beynəlxalq münasibətlər.
7.www.google.az 60-cı illərdə beynəlxalq münasibətlər

## ХАРАКТЕР МЕЖДУНАРОДНЫЙ ОТНОШЕНИЙ ПОСЛЕ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ (1946-1960 Годы)

***Бахтиярлы Гусейн***

***Резюме***

В статье изучается. характер международный отношений после Второй Мировой Войны (1946-1960 годы). Отмечается, что отношения были напряженными. Перемешайте созданные блоки. Напряжение динамично. Требовались новые отношения.

## INTERNATIONAL AFTER THE SECOND WORLD WAR THE NATURE OF THE RELATIONSHIP (1946-1960 S)

***Bakhtiyarlı Huseyn***

***Summary***

In the article after the Second World War the nature of the international relations (1946-1960 years) is studied. It is noted that relations have been tense. Shuffle created blocks. The tension is dynamic. A new relationship was needed.

***Rəyçi: dosent S. İsmayılzadə***
***Ümumi tarix kafedrasının 10 iyul 2024-cü il tarixli iclasın 11 saylı protokolu***
***Daxil olma tarixi 26 iyul 2024-cü il***